Bazar ertəsi, 30 dekabr 1918-ci il, nömrə 74

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 26 rəbiüləvvəl sənə 1337. 30 kanuni-əvvəl sənə 1918.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## ELAN

Bu gün kanuni-əvvəlin (dekabr) 30-unda 1918-ci sənəsi saat 12-də Azərbaycan Məclisi-Məbusan iclası olacağını, iclasın heyəti-rəyasəsi [rəyasət heyəti] elan edir.

## BAKI, 30 KANUNİ-ƏVVƏL [DEKABR]

### Yeni hökumət

Milli Parlamanın keçmiş iclasında yeni hökumət heyəti təşkili elan edilib, Hökumət rəisinin bəyannaməsi kamali-diqqətlə dinlənildi. Yeni hökumət bütün firqələrin və bitərəflərin etimad və etibarını qazandı. Yalnız bir ittihadçılar dedilər ki, "Biz etimadnaməmizi cibimizdə hazır saxlamışıq, yeni hökumətin hərəkatından bir qədər müttəle [xəbərdar] olduqdan sonra onu biz pişnihad [təqdim] edəcəyiz."

Yeni təşkil olunmuş Hökumət, Əhməd bəy Ağayev cənabları iş'ar etdikləri [bildirdiyi, dediyi] sükan kimi bizim taxta-parəmizi dənizin dalğalarından və fırtınasından xilas edib də sahilinicata [nicat sahilinə, qurtuluşa] sövq edəcəkmi ya?

İştə ümumun fikir və zehnini işğal [məşğul] edən məsələ!

Filhəqiqə [doğrudan da], keçirdiyimiz zaman və şərait pək ağır və müşküldür.

Həm xaricdə, həm daxildə dürlü-dürlü müşkülat vardır ki, onların rəf'i [aradan qaldırılması] üçün bizim zəif qüvvəmiz kafi olacaq deyə ümid etmək üçün artıq dərəcə nikbin olmaq lazımdır. İstiqlaliyyətimizin həm xaricdən, həm daxildən təsdiq olunması və məmləkətimizin, millətimizin təmini-həyatı [həyatının təmin edilməsi] məsələləri, əlbəttə, ən başda duran məsələlər qəbilindəndir. Bu mühüm məsələlərin böylə müşkül zamanda bir bu qədər ehtirasat [ehtiraslar] içində həll olunmasına müvəffəq olmaq ən böyük dünya "problemini", ən böyük müəmmanı həll etmək deməkdir.

Və böylə bir halda həmin müqəddəs vəzifəni öhdəsinə götürən heyət, yenə möhtərəm Əhməd bəy cənabları

demişkən, doğrudan da böyük bir fədakarlıq etmiş olar.

Lakin Hökumət rəisi öz verdiyi bəyannaməsində buyurdular ki: "İstiqlaliyyətimizi yeni hökumət, öz gözü bəbəyi kimi mühafizə edəcəkdir."

Bu vədi millət nümayəndələrinə verdilər.

Burası da məlumdur ki, Fətəli xan cənabları hökumət təşkili təklifini həmən dəm qəbul etməyib, bir müddət tərəddüddə qaldı. Tərəddüdünün də səbəbi hali-övzanın [vəziyyətin] qeyri-müəyyən şəkli idi. Lakin istiqbal [gələcəyimizi] və istiqlalımızı mühafizə etməyimizdə bizə mümaniət [maneçilik] göstərilməyəcəyi zəmanətini aldıqdan sonra, həmin məsuliyyətli vəzifəni qəbul etdilər.

Deməli, istiqlaliyyətimizə, hələlikdə, yəni Sülh Konfransınadək Müttəfiqlər tərəfindən bir toxuntu yetişməyəcəyinə əmanət [əminlik] aldılar. Həmin əmanəti general Tomson cənablarının dünkü nömrəmizdə dərc olunmuş elanı təsdiq və etiraf edir.

Azərbaycan dairəsində **Hökumətimizin yeganə qanuni hökumət** olduğu və ona Müttəfiqlər tərəfindən tamamilə **müzahirət [köməklik] göstəriləcəyi** təkid olunur.

Bu əlamətlərin mövcudiyyəti yeni Hökumətimizin verdiyi vədlərin qövldən feilə [sözdən işə] gətirilməsinə müvəffəq ola biləcəyinə bizə ümid verir.

Lakin bunun üçün Hökuməti tək başına buraxmayıb, bütün qüvvəmizlə onunla bərabər çalışmaq və lazımi yerdə ona rəhnüma [yol göstərən] olmaq icab edir.

Üfüqi-siyasi [siyasət üfüqü] nə qədər tutqun olmuş olsa da, indilikdə siyasi halət, demək olar ki, lehimizədir.

Bu halətdən istifadə etməliyiz.

## BU ZABASTOVKA NƏ İDİ?

Şəhərimiz üç günlük bir zabastovka keçirdikdən sonra təbii şəklini aldı. Həyat öz yoluna girdi.

Hər kəsin zehninə təbii bir sual gəlir: əcəba bu zabastovka nə idi?

Zahirini hər kəs bilir. İngilis komandanı Tomsonun əmri ilə bir neçə "Böyük Rusiyaçı" partiyalara mənsub və siyasətlə məşğul olan adamlar tutulmuşdu. Tomson bunları nə kimi bir mülahizə ilə tutmuşdu? Təqsirləri nə idi? Burası, bizcə, məlum deyildir. Müəyyən səbəbi camaatca məlum olmayan bu həbslər, ictima etməkdə olan [yığıncaq keçirən] əmələ [fəhlə] konferensiyasının nəzəri-diqqətini cəlb eyləmiş, komandanlıq kəndisinə müraciət edən konferensiya nümayəndələrini qəbul edərək, məhbusların buraxılmayacağını bildirmişdi. Bunun üzərinə konferensiya Zabastovka Komitəsi intixab edərək [seçərək] tutulanların buraxılması və siyasi hürriyyətlərin təmin olunmasına qədər əmələni zabastovka etməyə dəvət eyləmişdi. Nəhayət, Tomson ilə Zabastovka Komitəsi arasında saziş əmələ gəlib, tutulanlardan bir neçəsi bura-

xılmaq, digərlərinin mühakiməsi səriləşdir[il]mək [sürətləndirilmək], ictimalara da Tomsonun icazəsi ilə müsaidə verilmək surəti ilə məsələ yatırılmış, zabastovka da dayandırılmışdır.

Deməkki, zahirən bu zabastovka əmələnin bilafərqi-cinsü millət [cins və millət fərqi olmadan] Tomsonun keyfi idarəsinə qarşı bir protesto, hürriyyətlərin mühafizəsi üçün bir mübarizəsidir.

Əcəba, batində böyləmidir? Bu zabastovkanın görüldüyündən başqa, siyasi bir mənası və məqsədi yoxmuydu?

Biz kəndi mühakiməmizi söyləmədən əvvəl təcavüzkar rus imperializminin bayraqdarı "Yedinaya Rossiya" qəzetəsinin bu xüsusdakı mütaliəsini nəql edəlim:

"Yedinaya Rossiya"nın fikrincə, zabastovkanın məqsədi, əlbəttə ki, siyasi idi. Fəqət bu siyasi məqsədin ruh və mənasına gəlincə, məzkur [adı çəkilən] qəzetə deyir ki:

"Bu zabastovka birdən çıxmadı, xalqın ürəyində bir çox acılar və acıqlar toplanmışdı və məəttəəssüf [təəssüf ki], bu bir yerə toplanmış yanğın maddələrinin tutuşmasına general Tomsonun çıxışı səbəb oldu. Bütün bunlar dəxi zabastovkaya hər növ səbəblərdən əlavə, bir də mütəmadiyyən rus dövlət və millət hissiyyatına endirilən zərbə və təhqirlərdən doğma siyasi bir protesto şəklini verdi. Böyük bir məmnuniyyətlə qeyd ediriz ki, bütün rus camaatı arasında bu hiss gündən-günə artıb yer tutur və möhkəmləşir. Bunun isbatı da həman keçirdiyimiz zabastovkadır."

Deməkki, "Yedinaya Rossiya" qəzetəsindən "Bu zabastovka nə idi?" sualına "Hakimlik hissiyyatı təhqir olunan rus xalqının oyanması idi" cavabını alırız.

Yeni çıxan "İskra" sosial-demokrat qəzetəsi dəxi eyni fikri demokratizm kəlməsi altında işlədir; bu, demokratik Rusiya fikrinin qələbəsi idi, deyir.

Zabastovkanı idarə edən komitə isə bu xüsusda daha tədbirli və daha ehtiyatlıdır. Bununla bərabər, "Yedinaya Rossiya" qəzetəsinin tərif eylədiyi hissiyyatını zəbt edəmməyərək, bu komitə nəşr eylədiyi "İzvestiya"sında zabastovka edən əmələlərin düşmənlərini sayarkən deyir ki:

"Bizim üç düşmənimiz var: aclıq, Azərbaycan Hökuməti və xaricdən gələn qüvvət."

Bu xaricdən gələn qüvvət, yəni ingilis qüvvəti aclıqla Azərbaycan dərəcəsində bir ədüvvi-əkbər [böyük düşmən] kimi göstərilir. Fəqət nə vaxtdan?

Aclıq bulanlıq suda balıq tutmaq istəyən bir taqım hakimiyyət həvəskarı "siyasilərin" dostumudur, yoxsa düşmənimi, biləmmiriz. Azərbaycanın; kəndiləri kimi macəraçılara düşmən olduğunu isə inkar etməm. Fəqət ingilislər əcəba neyçün bunların düşmənləri sırasına keçdi? Bunlar ki, daha dün ingilislərlə bahəm [birgə] idilər. İngilislər buraya ibtidada [əvvəlcə] onların dəvəti üzərinə gəlmişlərdi. Onlar ki,

onlarla bərabər getmiş və bərabər də gəlmişlərdi.

Görünür ki, bunların ingilislər komandanlığından istədikləri mətləb, təkrar “Mart hökumətini” qurmaq, Azərbaycanı da yox hökmündə tutdurmaq idi.

Böylə bir macəra, bəlkə də, “Daşnaksutyun”a yarardı. O “Daşnaksutyun”a ki, bu günə qədər “demokratiçeski saveşaniyelər”də müəyyən bir qətnamə göstərməmək surəti ilə susdu. İndi araya az bir həyəcan gəlincə, mart günlərinə məxsus bir fitnəkarlıqla irəliyə atıldı. “Vperyod” nam [adlı] fəsadnaməsi ilə daha sağalmamış mart və sentyabr yaralarına duz səpdi. Min dürlü böhtan və iftiralarla aranı təkrar qarışdırmaq qəsdində olduğunu göstərdi və hələ dəxi bu məqsədini icra edib durur.

Bu macəra, hakimiyyəti əlindən alınan böyük rus imperialistlərinin “dərdinə” yanan Rus Milli Komitəsinin istədiyinə müvafiq olardı. Çünki, məhkum bir millətin təkrar əsarət və məhkumiyyət altına girməmək üçün çırpınması onun əlbəttə vecinə gəlməz. Onun təsəvvürüncə, burası daima “velikorus” millətinin koloniyası olmuş, öylə də qalmalı və müqəddəratımızın baş yazısını daima Moskva ilə Petroqraddan almalıyız. Şimdiki halda Petroqrad ilə Moskvaya hakim olan Leninlərlə Trotskilər hər nə qədər buradakı Podşibyakinlərlə Baykovların könüllərincə deyilsələr də, eybi yox, azərbaycanlının canı çıxar aylar, illər gözlər, cəhd və mübarizə edər, Lenini atar, Milyukovu tutar, axırda da gələr əfəndilərə təzim eylər.

Nəhayət, bu macəra burada təkrar “bolşevikvari” bir hökumət qurmaq istəyən bəzi bülhəvəslərin [həvəslərinin dalınca qaçan; ağlına gələn hər şeyi etmək istəyən adamların] işinə də yaraya bilərdi.

Yalnız, macərapərəstlik şanından olmayan ingilis komandanlığı, təbii idi ki, bunu yapmayacaqdı. Təbii idi ki, azərbaycanlılar haqqında dost deyil, düşmən məhfillərdən [dairələrdən] məlumat almış olan Müttəfiqlər Bakıya girdikdən sonra həqiqəti öyrənəcək və ona görə də rəftar edəcəklərdi. Həqiqəti gördülər, öyrəndilər, burada kəndi müqəddəratını həll etmək əzmində bulunan bir millət gördülər, bu qədər böyük müşkülat və maneələr içərisində bu millətin kəndisini idarə etmək istedadını göstərdiyini dəxi öyrəndilər. Təbii idi ki, Müttəfiqlər onun-bunun arzusu üçün bir millətin arzusuna qarşı çıxammaz, təbii idi ki, azərbaycanlıları Vilson prinsipləri xaricində tutammaz və təbii idi ki, kiçik millətlərin hüququ üçün hərb etdiklərini hər zaman və hər məkanda söyləyə-söyləyə gəlmiş olan Müttəfiqlər, burada bir istisna təşkil edəmməzlərdi, etmədilər də.

Nəticədə, bizi Ufa Hökumətinə tabe etmək və istiqlalımızın üzərinə qələm çəkmək istəyənlər heyrətlərlə gördülər ki, Azərbaycan Parlamanı açıldı. Onlarsız da olsa, hökumət təşkil

eylədi. İngilis əsgəri Parlamanı mühafizə etdi, onu hər növ ehtimallara qarşı qorudu.

İş bu şəklə minincə "Yedinaya Rossiya" və "Znamya truda" qəzetələri Tomson əleyhində yazılar yazmağa, əl altından da bir taqım işlər görməyə başladılar. Mart günlərinin "bərəkəti" də hələ kəsilməmişdi. Gəmidə gəzən bankın əlbəttə ki, bir təsiri olacaqdı. "Naməmnun" əmələləri qalxızmaq lazımdı.

İştə məsələnin doğu bu mehvər üzərində idi.

Zabastovka siyasi idi, həm də bu siyasət sinif məsələsi üzərinə ictimai bir binaya deyil, milli hissiyyata istinad edir, siyasi-milli rəng alırdı.

Zabastovkanı idarə edənlərin məharəti onda idi ki, işi sürətlə idarə edib, əmələnin geniş kütləsinə siyasətin bu qarışıq nüktələrini [incə mətləblərini] idrak etməyə meydan vermədilər. Azərbaycan-türk əmələləri məsələnin bu şəkildə olduğunu öyrənincə, həman [dərhal] zabastovkadan ayrılmağa başlamışlardı. Suraxanı, Binəqədi rayonları daha bir gün əvvəl işə başlamış, Balaxanıda dəxi bir neçə mədənlərin əmələsi zabastovka əleyhində qətnamələr çıxarmışlardı.

Fəqət, şübhəsiz ki, bu zabastovka siyasi bir təcrübə idi, bu təcrübədə azərbaycanlılıq nöqteyi-nəzərində duran siyasi firqələrin üzərində böyük bir məsuliyyət vardır. Onlar yeni hökumət təsisi məsələsi ilə fəzlə [çox] məşğul olaraq, bu cəhətə lazım olduğu qədər əhəmiyyət verəmməmişlər. Bunların, bu surətlə məşğul olduqlarından bilistifadə [istifadə edərək] rus partiyaları və Rusiyanın nöqteyi-nəzərində duran partiyalar həman sürətlə işə başlamış, hətta Azərbaycan sosialist firqələrinə belə sormadan, soruşmadan qərarlarını çıxarmışlardır. Bu bizə dərs olmalıdır. Bu dərsi qulağımıza sırğa edib də asalım.

Əmələsinin əksəriyyəti türk və müsəlmandan ibarət olan paytaxtımızda əmələ namına hərəkət edən və məəttəəssüf hərəkətlərində müvəffəq olan ünsürlər, Azərbaycan düşməni ünsürlərdir.

Əmələnin haqqı, mətbuatın hürriyyəti, şəxsin məsuniyyəti [toxunulmazlığı] doğru və haqq sözlərdir. Biz bu haqq sözlər uğrunda mübarizə edənlərə, hansı tərəfdə varsa, tərəfdarız. Onlara müiniz [yardım edəniz], fəqət bu şərtlə ki, bu mübarizə – bu sözlər qədər haqq və doğru olan Azərbaycan fikrinə qarşı olmasın, Azərbaycan istiqlalını uçurmasın!

Təbiidir ki, Azərbaycanı da özünə aclıq dərəcəsində düşmən sayan bir əmələ ilə, azərbaycanlı bir türk və bir müsəlman əmələsi özünü yoldaş sayammaz. Təbiidir ki, hürriyyətlərin müdafiəsi adı ilə, fəqət rus hakimiyyət hissinin təlqin eylədiyi bir məqsədlə icra olunan protest zabastovkasını Azərbaycan vətəndaşı xoş nəzərlə görəmməz.

Hökumət kəndi bəyannaməsində istiqlalımızı göz bəbəyi kimi qoruyaca-

ğını vəd eylədi. Göz bəbəyi hər şeydən ziyadə tozdan xarab olur. Bizim səhlənkarlığımız üzündən bir növ müvəffəqiyyət kimi görünən keçmiş zabastovka kimi hərəkətlər həman istiqlal gözünə üfürülən zərərli tozlardır. İstiqlal bəbəyimizi zəhərli tozlardan qorumaq istərsək əmələ vətəndaşlarımızın gözlərini açalım.

*M. Ə.*

## İSTİQLAL VƏ İSTİQBAL ÜMİDİ

Cahan Sülh Konfransının vaxtı yaxınlaşmaq üzrədir. Hər yerdə tədarükat görülməkdə olub, dövlətlərdən həman bir çoxu öz mürəxxəslərini [nümayəndələrini] seçib, o məclisi-kübraya [böyük məclisə] tərəf yola salmaqdadırlar. Hər dövlətin bir dərdi var, dərmanını həman məclisdə arayacaqdır. Özgələrin dərdi nədən ibarət olduğu haqqında baş işlətmək işini öz dərd çəkənlərinə buraxıb da, biz öz dərdimizin fikrində olaq, çünki bizim də dərdimizin dərmanı həman məclisi-kübradan hasil ediləcəkdir. Biz də dərdimizə dərman tapa bilən adamlarımızı seçib oraya göndərməliyik.

İstiqlal və istiqbal [gələcək] məsələmizin "hə" və ya "yox" nəticəli həlli həmin məclisin hökmündən asılıdır. Fəqət bu hökmün məclis tərəfindən "hə" və ya "yox" surətdə həll edilməsi, orada çalışmağa göndərilən adamlarımızın hümmət və ya hümmətsizlik, fəaliyyət və ya fəaliyyətsizliyinə bağlı olacaqdır. Çalışarlarsa, hümmət və fəaliyyət göstərərlərsə "hə" alıb vətən və millət qabağında üzü ağ olarlar. Əks-surətdə "yox" hökmünün yaman xəbərini millətə və vətənə nə üzlə gətirəcəklərini özləri mülahizə etsinlər.

Lakin Allah eyləməsin ki, "yox" xəbəri ilə qayıtsınlar. O halda, bütün ümidlərimiz, bütün amal və arzumuz məhv və nabud [puç] olub da əvəzində qeyri-qabili-təsəlli [təsəllisi mümkün olmayan] bir hüzn və olduqca dərin bir yəs [kədər] və ələm əmələ gəlib, artıq dünya üzündə yaşamaq həvəsindən düşərik və yaşasaq da ölü olduğumuzun və ya diri qaldığımızın heç bir fərqi olmaz. Çünki, hüquqi-siyasiyyə və milliyyəsindən [siyasi və milli hüquqlarından] məhrum edilmiş olan bir millətin ölülüyü diriliyinə və diriliyi də ölülüyünə müsavidir [bərabərdir]. Böylə bir millət haqqında:

*Zində ənd vəli mürdə,*
*Mürdə ənd vəli zində*

demişlərdir...

"Şər deməsən xeyir olmaz" söyləmişlər. Lakin qara fikirlərlə əhvalımızı pişəzvəqt [vaxtından qabaq] pərişan və mükəddər [kədərlənmiş] etməyək və hissiyyata yol verməyib də ağıl və idrakla hal və övzamızın [vəziyyətimizin] necəliyini biduni-təhəyyüc və iztirab [həyəcansız və iztirabsız] təsəvvürə gətirib, Sülh Konfransında istiqlalımızın təsdiqi səadətinə nail olarsaq, vətən və millətimizi nə tövr böyük bəlalardan qurtaracağımızı bir balaca mülahizədən keçirək.

Hər bir fərdimizin məlumu olduğu üzrə Rusiyada hüquqi-milliyyə və siyasiyyəmizi iqrar [təsdiq, qəbul] və etiraf edən və Rusiyadan ayrılıb da müstəqil yaşamaq arzumuza ruyi-riza göstərən [razılıq verən] və bu əmrə [işə] xoşluqla qol qoya bilən bir firqə və ya bir partiya təsəvvür etmək mühal xaricində [imkansız] bir şeydir. Bolşevik olsun, menşevik olsun, eser [sosialist-inqilabçı] olsun, esdek [sosial-demokrat] olsun, kadet olsun, monarxist olsun, hətta anarxist olsun, heç biri bizim istiqlalımıza razı olacaq və bu gün bilfeil [əməli surətdə] müstəqil yaşamağımıza kin və küdurətsiz baxacaq deyildirlər.

Əgər biz bu gün bolşeviklərlə hüquqi-siyasiyyə və milliyyəmiz müdafiəsi yolunda müharibə etmiriksə, səbəbi bolşeviklər başının monarxistlər hücumu dəf'inə qatışmış olduğudur. Və genə biz həman hüquqlarımızın mühafizəsi yolunda monarxistlərlə cəngü-cidal etməyiriksə, bunun da səbəbi monarxistlər başının bolşevikləri süqut etmək işinə məşğul olduğudur.

Deməli, bir gün olacaqdır ki, Rusiyada monarxistlər və ya bolşeviklər hakimi-mütləq olmaq ixtiyarını bir kərəlik ələ alıb da ondan sonra Rusiyadan ayrılmış olan "üsyançılar" üzərinə tökülüb, onları təkrar itaətə məcbur etmək işi ilə uğraşacaqdırlar. "Üsyançıların" da ki, biri bizik, binaənileyh [ona görə], bizim də üstümüzə töküləcəkdirlər. O halda biz iki əmrdən [işdən, haldan] birini qəbula məcbur olacayıq: ya boyun əyib itaət etmək və ya hüququmuzu qılınc gücü ilə müdafiəyə durmaqdır. Əvvəlinci təqdirdə – genə əsirlik! İkinci təqdirdə isə nə qədər fədakarlıq göstərsək də, müvəffəq olacayıq ya olmayacayıq və ya bəlkə də ümum Qafqaz millətləri xüsusi ədavətlərini unudub bu ümumi fəlakət dəf'ində bizə kömək durmaqla qətiyyən müvəffəq olacayıq – hər halda təkrar qurbanlar verib, çaylarca qan axıtmağa məcbur olacağımız şübhəsizdir. O surətdə sair təsadüfi nəticələrdən salamat qurtarsaq da, məmləkətimizin bir tərəfdən məişət və güzəranı və digər tərəfdən islah və tənzimi işlərinin nə qədər çətinlik və nə dərəcə müşkülata düşürüləcəyi hər kəscə etiraf ediləcək təbii bir əmrdir.

Halbuki, hüquqi-istiqlaliyyəmizi qan tökməksizin, millətimiz və məmləkətimiz başına təkrar-təkrar ağır bəlalar açmaqsızın bir surətdə müdafiə və mühafizə etmək üçün başqa bir çarə yolu vardır ki, o da Sülh Konfransı məclisi-kübrasında çalışmaq və qılınc əvəzində sözlə müharibə edib, əməl [istək] və arzumuzun haqq olduğunu hər kəsin iqrar edə biləcəyi bir surətdə aşkar və bəyan etməkdir.

Bizim və bizim kimi xırda millətlərin xoşbəxtliyindəndir ki, Cahan Sülh Konfransı təhti-əsarətdə [əsarət altında] olan ümum millətlərin müqəddəratını həll etmək məsələsini dəxi Vilsonların və digər sahibi-nüfuz hürriyyətpərəstlərin iradəsi ilə öz proqra-

mına daxil edib, əsarətdən xilas olmaq imkanına yol verir. Adam istər ki, bu xoşbəxtlikdən və bu gözəl fürsətdən layiqincə istifadə edə bilsin.

Ona görədir ki, Sülh Konfransına adam seçib göndərmək işində nə qədər diqqət və nə qədər ehtiyatla iş görərsək, bir o qədər qazanmış olarıq. Vacib-vacib işlərimiz içində daha bundan vacibini mən təsəvvür edə bilmirəm. Və zənnim budur ki, bu işlərə ən cüzi səhlənkarlığımız, ən ağır günahımızı mövcib olacaqdır [ən ağır günahımıza bais olacaqdır]. Sülh Konfransına göndərmək üçün adam seçənlərin də və seçilən adamların da boynuna düşən olduqca ağır və ağırlığı qədər də müqəddəs olan vəzifəni hər iki tərəf dürüst mülahizə etməlidir. Seçənlər, adamlarımızın qabiliyyət və ləyaqətini və seçilənlər də bu qabiliyyət və ləyaqətə dara [malik] olduqlarını kamalınca dərk edib nəzəri-etinaya almalıdırlar. Seçən seçdiyinə və seçilənlər də özünə arxayın olmalıdır.

Vəilla [yoxsa] bu işdə də adi seçki işlərimizdə olan kimi bəzi arzu olunmayan hərəkətləri rəva görsək və ya diqqət və ciddiyyət əvəzində biləks [əksinə] "indifferentizm" [laqeydlik, etinasızlıq] göstərsək, o halda istiqlal və istiqbala istehqaq [haqq, layiqlik] qazanmaq istədiyimiz yerdə, daha da cəhalət və ləyaqətsizliyimizi aşkar edib, əlimizdəkin[i] də əldən buraxmağa məcbur olarıq. Onda vay bizim halımıza! Zənciri-əsarəti millət təzədən boynuna salsın və ya qüdrəti xaricində olan mübarizələr nəticəsində məhv olub getsin!

Lakin ümidvarıq ki, mühüm və əhəmm [ən əhəmiyyətli] sayılan bu böyük işi səhvsiz və xətasız bir surətdə icra edə biləcək əqli-səlimə [sağlam düşüncəyə] və zəkavətə [ağla, fərasətə] malik olan adamlarımız millət və vətəni istiqlal və istiqbal ümidindən məyus və məhrum etməyi heç bir vəchlə rəva görməzlər.

Tövfiq [kömək] Allahdandır!

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(Keçən nömrədən mabəd)*

### Yeni Kabinə təşkili

Rəisi-vükəlanın [Baş nazirin] proqram nitqindən sonra beş dəqiqə tənəffüs elan edilərək bədəhu [sonra] fraksiyalar yeni Kabinə və onun proqramı haqqında rəylərini bəyan edirlər.

Birinci növbətdə Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi tərəfindən firqə rəisi nitq irad edir:

**Rəsulzadə Məhəmməd Əmin:**

Möhtərəm məbuslar! Yeni təşkil olunmuş Kabinənin bəyannaməsini müzakirədən əvvəl, həman bəyannaməni nə kimi bir zamanda eşitdiyimizi qeyd etmək istəyirəm. Xaricən məmləkətimizin nə kimi bir vəziyyətdə

bulunduğu bəllidir, fəqət bu müşkül vəziyyət, yalnız xaricdə olmayıb, daxildə də böylədir. Müşkülat qarşısında olduğumuz, bu gün cari olan hadisələrdən aşkardır. Bu gün şəhər həyatı büsbütün durdurulmuşdur. Hökumətimizin bəyannaməsində deyildiyi kimi, əhalinin bir hissəsi də burada hazır deyildir. Gərək məclisimizin bu nöqsanı və gərəksə daxili işlərimiz nə tövr müşkülat qarşısında olduğumuzu isbat edir.

Əvət, müxtəlif cərəyan və hərəkətləri ruhlandıran bir ruh, bir əməl [arzu] vardır. Onlara istinadda bulunmaq istəməm. Bu kürsü, böhtandan uzaq qalmalıdır və əldə isbat olmadan söz söyləməmək bizim əxəssi-amalımızdır [başlıca amalımızdır]. *(Alqış)*

Bu gün ortada olan həbsləri bəhanə edərək, şəhərimizin həyatı durdurulmuşdur. Bunlar nəşr etdikləri bəyannamələrində və qəzetələrində nə deyirlər? Bunlar deyirlər ki, bizim düşmənimiz aclıq və aclıq qədər müdhiş Azərbaycan Hökumətidir. *(Soldan "doğrudur"; səslər: "eyibdir!")* Bu təsəvvürlərlə şəhərin həyatını dayandırıb, damarlarını fəlc [iflic] bir hala gətirirlər. Böylə mühüm bir zamanda Hökumət rəisinin istiqlaliyyətimizin göz bəbəyi kimi mühafizə olunacağını söyləməsi kimi münasib bir zaman olammaz. *(Sürəkli alqış)* Əsl məqsədləri bu ikən siyasi hürriyyətlərdən bəhs edirlər. Batil məqsəd üçün haqq söz söyləyirlər. Kəlamü'l-haqq yuridu bihi əl-batil. Fəqət biz gözbəbəyi kimi mühafizə olunacaq istiqlaliyyətimizin hər fitnəyə qarşı müdafiə olunacağını ümid edəlim. Bu əzmdə yalnız bir Hökumət deyildir, bütün millət bu əzmdədir. Bu gün bizim istiqlalımızı tanımaq istəməyənlər, həqiqi demokrat deyildirlər; çünki həqiqi demokratlar, həqiqi sosialistlər üçün qara cins, ağ cins yoxdur; bunlar üçün ancaq haqq və hüquq vardır. Bütün əmələlər [fəhlələr] və zəhmətkeşlər bilməlidirlər ki, Azərbaycanın da buna haqqı vardır. Bu xüsusda bütün həqiqətpərəstlər bizimlədir. Bunlar hər bir millətin istiqlaliyyətini göz bəbəyi kimi sevən hökumətlə də bərabər olacaqlardır.

Hökumətin bəyannaməsində mühüm bir nöqtə görürüz ki, o da biz "Müsavat" firqəsi və sair demokratik firqələr nöqteyi-nəzərindən şayaniqeyddir [qeyd edilməlidir]. Hökumət deyir ki millət, bir millətin əksəriyyətini təşkil edən əmələlərlə kəndçilərdən ibarətdir. Milləti müdafiə etmək əmələ, fəhlə və kəndliləri müdafiə etmək deməkdir. Hökumət bu xüsusda bizi daima özü ilə bərabər görəcəkdir, fəqət lazımdır ki bu söz, sözdə qalmayıb işə keçsin. Hökumət rəisi ağzından eşidilən sözlər bunu isbat edirlər.

"Müsavat" fraksiyasının deklarasiyasındakı bir çox maddələri Hökumət bəyannaməsində gördüyümüzdən məmnun oluruz. Hökumət bu bəyannaməsinə sadiq qaldığı müddətcə təmamilə "Müsavat" firqəsi və əzasının [üzvlərinin] etimadına məzhər [nail] olar. *(Alqışlar)*

**Əhməd bəy Ağayev:**

Möhtərəm əfəndilər! Məndən əvvəlki natiq, möhtərəm rəfiqim, Hökumət haqqında pək həssas, pək sıcaq bir nitq irad etdi [söylədi] ki, möhtəviyyatına şərik oluram. Fəqət onunla mənim aramızda bir fərq var ki, onun atəşi çox, mənim atəşim sönmüş; o gəncdir, mən ixtiyar; onun bir az göylərdə gəzməyə haqqı var, mən isə yeri görməyə məcburam.

Hökumətin bəyannaməsində söylədiyi Azərbaycan istiqlalı, bizim həpimizin əqsayi-amalıdır [son məqsədimizdir]. Hər bir kəndi şərəfini, kəndi amalını bilən azərbaycanlı bunu duymalı və bu yolda olmalıdır, bu yolda ölməlidir. *(Alqışlar)* Lakin bu əməlin ölməməsi və onun qövldən feilə [sözdən işə] gəlməsi üçün birinci amil yenə hökumət kəndisidir. Bunu unutmayalım ki, məmləkətimiz qayət böyük təhlükələrlə mühatdır [əhatə olunmuşdur]. Gecə qaranlıq, fırtınalar oynayır, biz də bir taxta-parə [taxta parçası] kimi fırtına içində yuvarlanırız. Bunu qurtaracaq yenə hökumətdir. Bunu qurtarmaq üçün də mən bir əzmkar hökumət istərəm, fəqət söylədiyim taxta-parə təkcə bizdən ibarət deyildir ki, onun üçün düşünmədən işə başlayalım. Bu taxta paranın üzərində iki milyonluq Azərbaycan, onun şərəfi, qadınları və çocuqları bulunur. Bunları xilas etməklə böyük bir vəzifə ifa etmiş olarız. Rəisi-vükəla [Baş nazir] bu qisim bir vəzifəni öhdəsinə götürdüyü xüsusunda bəyan etdiyi bütün fikrinə iştirak edirəm, bununla bərabər, hökumətin dəxi bir proqramı olmalıdır. O da bu taxta-parəni aparmaq üçün bir sükan təşkil edəcəkdir. O sükan üzrə sağa-sola baxmayaraq düz, doğru, amalına tərəf kürəklərini çəkib, o taxta-parəni əzmkaranə bir sahilinicata [nicat sahilinə] çıxarmalıdır.

Əcəba, Hökumətin sükanı və əlindəki kürəklər nədən ibarət ola bilər? Birisi kəndi üçün yapdığı proqramdan, digəri də o iradədən ki, o da bəyannamədən məlum oldu. İstiqlaliyyətimizi xaricən qəbul etdirmədən əvvəl, Hökumətimizi daxildə təsdiq etdirməliyiz. Ona görə Hökumətimiz daxili və xarici düşmənlərimizi məhv edəcək bir hökumət olmalıdır. *(Mərkəzdən alqış)*

Məəttəəssüf [təəssüflər olsun ki], bu vaxta kimi Hökumət bunları etməmişdir. Məəttəəssüf, hökumət iradəsini göstərdiyi zaman olmamışdır. *(Mərkəzdən: “Düzdür!”)*

Məəttəəssüf, ələmlə deyəcəyəm ki, Hökumət daxilində işlər lazım olmayan adamlar əlinə tapşırılmışdır. Binaənileyh [ona görə], daxildə hökuməti düzəldəcək qəti tədbirlərə müraciəti lazım bilirəm. İşləri yoluna salmaq üçün ən layiq, ən müdəbbir [tədbirli, uzaqgörən] adamların iş başına gətirilməsini arzu edirəm. Yalnız bu vasitə ilədir ki, suistimallara [sui-istifadələrə] xitam verilər və Hökumət nahiyələrin hər yerində varlığını ehsas [hiss] etdirər.

Bir də Rəisi-Hökumət [Hökumət başçısı] tərəfindən bir ordu təşkilinin

lüzumu göstərildi. Onsuz da Hökumət özünü heç kimsəyə ehsas etdirəmməz. Onun üçün lazım bilirəm ki, heç bir mövqe, sinif fərqi olmadan hamı əsgərliyə alınsın. Heç bir yuxarı, aşağıya nəhayətə qədər tərəhhüm [rəhm] edilməsin. *(Ümumi alqışlar)*

Nəzarətlərə [nazirliklərə] sıxılmışların, gizlənmişlərin kaffəsi [hamısı] alınmalıdır. *(Soldan və mərkəzdən alqış)*

Böylələrə şiddətli cəzalar verərək, həp ordu içərisinə atmalıdır. Əks halda, çiftçinin [əkinçinin, kəndlinin] çocuğu alındıqda, verməməyə haqqı var. Bu surətlə hökumətdən daxildə əzm və səbat istərəm.

Xarici işlərə gəldikdə; yenə də keçmişdən şikayətə məcburam, şimdiyə qədər xaricdə lazım gələn qədər tədabir ittixaz edilmədi [tədbirlər görülmədi]. Bu gün qonşularımızdan Ermənistanla bizim yekdigərimizə [bir-birimizə] mürəxxəs [nümayəndə] göndərməmiz lazım idi. *(Soldan: "doğrudur")* Fəqət bu edilmədi, halbuki erməni-müsəlman münasibatını [münasibətlərini] düzəltmək və bütün Qafqaziya millətlərini barışdırmaq bizim üçün ən mühüm məsələ, ən birinci vəzifədir. *(Alqışlar)* Bu da hər iki tərəfdən nümayəndə olmaması ilə başa gələn bir iş deyildir.

Bundan əlavə, biz istiqlaliyyətimizi Avropaya tanıtdırmalı idik. Bunu etmədik. Azərbaycan bir coğrafi isim deyil, bir yerin üzərində yaşayan bir millətin adı olduğunu Avropanın qulağına yetişdirmədik. Azərbaycan öz mövcudiyyətini bu vaxtadək Avropaya andırmamışdır *(Soldan: "vaxtları yoxdu")*

Məndən irəliki rəfiqim bir az idealist olaraq, demokrasi əsaslardan, demokratizmdən bəhs edir, böyük iman bəsləyir. Fəqət heyhat! Zənn edirəm ki, kəndisini tanıtdırmayanlar üçün böylə bir nemətin əldə edilməsi bəiddir, məhaldır [uzaqdır, imkansızdır]. Kimin dostu, nüfuzu var, o tanınar. Dostluqdan da irəli, qüvvət də düşünülür. Binaənileyh [ona görə], Avropada satın təbliğat vasitəsi ilə kəndimizə nüfuz qazanılmadığına bəyani-təəssüf etməmək qabil deyildir. Avropaya yolumuz bağlıdır. Orada nə olduğunu belə bilməyiriz. Halbuki, Avropada vüqu bulan hadisatdan [hadisələrdən] bizim də müqəddəratımız asılıdır. Avropada nələr olduğunu bilməli, siyasətimizi də ona münasib və müvafiq bir surətdə yürütməliyiz. Ona görə də, Avropa ilə Azərbaycan arasında qasidlərimiz bulunmamasına da təəssüf etmək məcburiyyətindəyəm. Burada yaşıl mahudlu masalar ətrafında oturub, kənardan xəbərsiz olaraq siyasət aparılammaz.

Bütün keçmişə aid bu xətaları söyləməkdən məqsədim atidə [gələcəkdə] bunların bir daha təkrar olmaması üçündür. Ümid edirəm ki, yeni Hökumət daha böylə-böylə xətaları işləməyəcəkdir.

Son sözüm olaraq bunu deyirəm ki, Hökumət öz deklarasiyasının həyata tətbiqində tamamən onu təsdiq et-

məklə, əzmkar olmasını diləyərək, bitərəflər namına [adına] bəyani-etimad edərəm. *(Alqışlar)*

Bundan sonra "Əhrar" firqəsi tərəfindən **Abdulla bəy Əfəndiyev** kürsiyi-xitabətə çıxaraq, əvvəlcə bir deklarasiya oxumağa başlayır. Sədr deklarasiya oxumaq vaxtının keçdiyini bəyanla, bu gün ancaq mənsub olduğu firqənin Hökumət proqramı haqqındakı nəzəriyyatını söyləməsi icab etdiyini bildirdikdə, Abdulla bəy cənabları, bəyan edir ki, onun firqəsi o vaxt ümum firqələr deklarasiyasını oxuyan zaman qəflət etmiş olduğundan, bu gün fürsətdən bilistifadə [istifadə etməklə], deklarasiyasını oxumaq istəyir. Nəhayət, Məclisin müsaidəsi ilə sədr izin verir. Abdulla bəy deklarasiyasını oxuyub qurtardıqdan sonra axırda "Əhrar" firqəsi tərəfindən Hökumətə bəyani-etimad edir.

Bədəhu [sonra] "İttihad" firqəsi namından doktor **Qarabəyli Qara bəy** nitq söyləyərək deyir ki:

Bu gün bu minbərə çıxıb, yenə söyləmək istəyiriz. Zira görürüz, daima söyləyirlər. Acı-acı sözlər də söylənir. Gələcəyi yaxşı görənlər də bulunur. Natiqlər həpsi haldan söyləyirlər. Nə qədər ciddi olduğunu təsvir edirlər. Hətta Əhməd bəy əfəndi bizi taxtaparəyə mindirib dənizə tullayır. Doğrudur, halımız fənadır, hər kəs çalışır ki, aradakı qara divardan bir işıq nöqtə bulsun [tapsın]. Bizi xilas edəcək bir qüvvə arayır, onu da Hökumət şəxsində bulur. Hökumətin borcudur, böyləliklə bulunmuş yol ilə getsin. Millət də onu mütəaqibən [izləyərək] nicat tapsın. Fəqət, baxalım bu asanmı?!

Biz Hökumətin söylədiklərini eşitdik, fəqət bunu keçmişdə də eşitmişdik: əhval fəna imiş, ölkəmizdə bir şey yoxmuş. Övza [vəziyyət] namüsaid imiş və qeyrə.

Biz Hökumətdən hələ böyük məsələlərin həllini istəməyirik. Fəqət bəzi şeylər var ki, tələb etməyə haqlıyız. Öylə kiçik binalar vardır ki, Hökumət onu qoymalı idi, fəqət qoydu mu? Xeyr! Hökumət bunu etməmişdir, bunu yapmamaq böyük məsələlərə nisbətən əfv edilməz günahi-kəbirdəndir [böyük günahlardandır]. Andranik macərasından milləti azad, Ermənistan Hököməti ilə əlaqeyi-siyasiyyə peyda etmək keçmiş hökumətin işi idi. Fəqət bunları etmədi. Şimdi ümid edəlim ki, yeni Hökumət bunu düşünəcəkdir.

Bu millətə xidmət etmək lazımdır. Bu millət sahibsizdir. Bu millət ingilis deyil, fransız deyil, hökumət başında duranlar sidqi-dil ilə [düzgünlüklə, ürəkdən] vaxtlarını millətə sərf etməli, öhdəsinə ağır vəzifələr götürərək gecə-gündüz səy və qeyrət etməlidir. Biz ümid ediriz ki, böylə də olacaqdır. Biz gözləyiriz Hökumət əməlində özünü göstərsin. Baxalım Hökumət bir iş görəcəkmi, bir şey yapa biləcəkmi? Yapa bilərsə, bizim firqəmiz o vaxt Hökumətə bəyani-etimad edəcəkdir. Vüzəra Kabinəsində [Nazirlər Kabinetində] sabiq Hökumət əzasından [üzvlərindən] bəziləri baqi qalmışlardır [dəyişməmiş-

dir]. Biz onların keçmişindən bir şey görmədik, bəlkə gələcəkdə bir şey yapacaqlar, baxalım. Şimdi biz etimadnaməmizi cibimizə qoyub saxlayırız. Nə vaxt Hökumət özünün layiqli olduğunu göstərsə, biz də o vaxt etimadımızı bəyan edəriz."

**Məhərrəmov:**

"Parlamanda təşkil olunmuş Sosialistlər fraksiyası tərəfindən yeni Hökumətə etimadımızı bəyan ediriz." *(Alqışlar)*

**Şeyxülislamov:**

"Parlamanın "Hümmət" fraksiyası yeni Hökumətə etimadını izhar edir." *(Alqış)*

**Sədr:**

Danışmaq istəyən yoxsa, "Müsavat" fraksiyası tərəfindən idxal [daxil] edilmiş təklifi elam [elan] edəlim.

**Əhməd Cövdət** (formulanı oxuyur):

"Hökumət bəyannaməsini dinləyərək, Azərbaycan Məclisi-Məbusanı Fətəli xan Xoyski hökumətinə etimad eylədiyini bəyanla, növbədəki məsələlərin müzakirəsinə keçir."

Təklif səsə qonularaq "İttihad" firqəsi iştirak etməmək üzrə ittifaqi-ara ilə [yekdilliklə] formula qəbul edilir. Bundan sonra kommissiyalar intixabına [seçilməsinə] şüru edilir [başlanır].

Kommissiyalara seçilən zəvat bunlardır:

Maliyyə Komissiyasına – "İttihad"-dan Miryaqub Mirmehdiyev, "Əhrar"-dan Hacı Molla Əhməd Nurizadə, Sosialistlər İttifaqından [Məhəmməd] Məhərrəmov, "Müsavat"dan [Nəriman bəy] Nərimanbəyov, "Hümmət"-dən [Əkbər ağa] Şeyxülislamov, bitərəflərdən Əliağa Həsənov, Azlıqda qalan millətlər fraksiyasından [Moisey] Quxman;

Fəhlə Komissiyasına – "İttihad"dan Heybətqulu Məhəmmədbəyov, "Əhrar"dan Bayram Niyazi Kiçikxanov, Sosialistlər İttifaqından Rza Qaraşarov, "Müsavat"dan [Cavad bəy] Məlik-Yeqanov, "Hümmət"dən Əliheydər Qarayev, bitərəflərdən Abuzər bəy [Rzayev], Azlıqda qalan millətlərdən Sxakaya;

Məclisi-Məbusan Hazırlığı Komissiyasına – "İttihad"dan Qazi Əhməd Məhəmmədbəyov, "Əhrar"dan Abdulla bəy Əfəndiyev, Sosialistlər İttifaqından Camal bəy Hacınski, "Müsavat"-dan Məhəmməd Əmin Rəsulzadə, "Hümmət"dən [Əkbər ağa] Şeyxülislamov, bitərəflərdən Teymur bəy Makinski, Azlıqda qalan millətlər fraksiyasından Vanseviç.

## ERMƏNİ-GÜRCÜ TOQQUŞMASI

Məhəlli [yerli] qəzetələrdə gürcü-erməni müharibəsinin qurtarması xəbərləri dərc edilmişdi. Məlumatlı mənbələrdən aldığımız xəbərlərə görə, məəttəəssüf [təəssüf ki], bu xəbər əsilsizdir. Məzkur [deyilən] mənbələrdən verilən xəbərlərə görə, hər iki tərəf arasında müharibə hərəkatı davam

edib, gəldikcə şiddətlənməkdədir. Dekabrın 27-sində gürcü əsgərləri Şüləveri işğal edib, müharibə ilə irəliləməkdədirlər. Tiflisdə asayişi-tam hökmfərmadır [tam asayiş hökm sürməkdədir].

**Müttəfiqlərin müdaxiləsi**

Bizə verilən xəbərlərə görə, Müttəfiq dövlətlər heyəti Tiflisə varid olub, tezliklə müharibə hərəkatının dayandırılmasını tələb etmişdir. Müttəfiqlər heyətinin tələbatına görə, hər iki tərəf hal-hazırda əxz [əldə] etdikləri mövqedə dayanıb, bir-biriləri əleyhinə düşmənanə hərəkatda bulunmamalıdırlar. Müsəlləh [silahlı] toqquşmaya bais olan mübahisəli sərhəd məsələsi Müttəfiqlər məhkəməsinə verilməlidirlər. Hər iki tərəf məzkur [adı çəkilən] məhkəmənin qərarına tabe olmalıdırlar.

* Dekabrın 24-ündə ingilis-fransız heyəti, sürət qatarı ilə Batumdan Tiflisə varid olmuşdur. Fransız generalı da sürət qatarı ilə varid olub, cənub xəttinə əzimət etmişdir [yola düşmüşdür].

**Həbslər**

Gürcüstanla Ermənistan müharibəsi münasibəti ilə daşnaksaqanlar cümləsindən, Tiflis Şəhər İdarəsi üzvlərindən Zərgəryan, Ter-Stepanov, Matinyans və xanım Tatevosyans həbs edilmişlərdir.

**Könüllü dəstələr**

Gürcüstan Hərbiyyə naziri könüllü dəstələr təşkilini general Maqalov, Purtseladzeyə və polkovnik Karqareteli, İntskirveli, Kartsivadze və Artmeladzeyə həvalə etmişdir [tapşırmışdır].

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN

Azərbaycanda olan gürcü siyasi nümayəndəsi [Nikolay İotamoviç] Kartsivadze böylə bir təkliflə Azərbaycan Hökumətinə müraciət etmişdir:

*“Azərbaycanla Gürcüstan arasında iqtisadi münasibatı [münasibətləri] yaxşılaşdırmaqdan ötrü Gürcüstan Hökuməti Azərbaycan Hökumətinə təklif edir ki, Yevropa dövlətləri arasında qəbul edilən ümumi əsas üzrə gömrükxana, dəmiryol və poçta, teleqraf ittifaqı üçün Gürcüstanla sazişə girsin. Azərbaycan Hökuməti buna razı olarsa, bu barədə müfəssəl müqavilənamə hazırlamaqdan ötrü hər iki Cümhuriyyət nümayəndələrindən ibarət bir komissiya təşkil edilməlidir. Bu məsələlər Azərbaycanla Gürcüstan arasında həll edilməsə, həkəm [arbitr] məhkəməsi tərəfindən baxılması lazımdır.”*

## TELEQRAF XƏBƏRLƏRİ

### Türkiyədə

**Təzə Kabinə**

İzzət paşa Kabinəsi istefa vermişdir. Təzə kabinə təşkili, təzə vəzir Tofiq paşaya tapşırılmışdır.

Təzə kabinə heyəti: Baş vəzir - To-

fiq paşa, Daxiliyyə vəziri - Mustafa Arif, Ədliyyə - [Əli] Heydər, Maarif - Filosof Rza Tofiq, Hərbiyyə - Abdulla paşa, Bəhriyyə - [Əli] Rza paşa, Ticarət - Vayanis.

**Əfvi-ümumi**

Heyəti-vüzəra [Nazirlər Kabineti] siyasi əfvi-ümumi [amnistiya] məsələsini müzakirə etmişdir.

**Fransız admiralı Amet**

Fransız donanmasının Türkiyədə olan Baş Komandanı Amet mətbuat nümayəndələri ilə müsahibə əsnasında demişdir ki, bu yaxınlarda Fransa səfarəti [səfirliyi] İstanbula övdət edəcəkdir [qayıdacaqdır]. Admiral Ametin rəyincə, ən yaxın zamanda sülh əqd ediləcəkdir [bağlanacaqdır]. Müttəfiqlərin ticarət gəmiləri bu yaxınlarda İstanbula gəlib Türkiyədən ötrü bir çox mal gətirəcəklərdir. Müttəfiq dövlətlər Türkiyə ilə ticarət münasibatından ötrü bir çox yük gəmiləri vagüzar [tədarük] etmişlərdir.

## MAARİF MÜFƏTTİŞLƏRİNİN YIĞINCAĞI

*(9-uncu iclas, axırıncı)*

Kanuni-əvvəlin [dekabrın] 23-ündə iclas, Əmirov cənablarının təhti-sədarəti [sədrliyi] ilə açılıb, mühüm və müxtəlif məsələlərdən ötrü seçilmiş komissiyaların məruzələri oxunur.

Necə ki məlumdur, istibdad dövründə proqramca mütabiq [bir-birinə uyğun], fəqət təşkil və məqsədcə müxtəlif məktəblər bina olunmuşdur. Məsələn, "normalnı" məktəb, kilsə cənbindəki [nəzdindəki] məktəblər, "zemski" və qeyri məktəblər. Bu cümlədən, əvvəlinci normalnı məktəblər sabiq hökumətin, əhalini ruslaşdırmaq politikasına xidmət edici bir məktəb olduğu üçün, belə məktəblərdəki müəllimlərin qulluğu, rəsmi hökumət qulluğu hesab olunurdu. Bu cəhətə görə, məzkur [deyilən] müəllimlərə hər vaxt maddi mükafat verildiyi kimi, itmamixidmətlərində [xidmətlərini başa vurduqda], onlara xəzinədən təqaüd maaşı dəxi verilirdi. Halbuki, başqa məktəblərin müəllimləri belə mükafat və imtiyazatdan [imtiyazlardan] məhrum idilər. Demək, bu normalnı məktəblərin proqramı bir olduğu kimi, buraya sərf olunan para [pul] dəxi bir çeşmədən buraxılırdı. Fəqət məsələnin gizlin və həqiqi cəhəti münasibəti ilə məktəblər və burada xidmət edən müəllimlər doğma və başqa məktəb və müəllimlər ögey övlad hesab olunurdular. Kilsə cənbindəki məktəblər isə zahirən ruhani məktəbləri hesab olunurdularsa da, batinən bir missioner güruhu [qrupu], xüsusən bizim etiqadi-diniyyəmizi [dini etiqadımızı] təhqir edəcək müarizlər [əleyhdarlar] yetişdirmək üçün təşkil olunan bir məkan şəklini almışdı. Ona görə ibtidai kənd məktəblərindən artıq, hökumət belə məktəblərə əhəmiyyət verirdi.

İştə bu mülahizələri nəzərə alaraq, məktəb ailəsində minbəd [bundan

sonra] ögey-doğmalıq politikasına əsla yer verilməmək əsas olaraq, komissiya bu vaxta qədər məktəblər arasında olan müxtəlif ünvanı tamamilə ləğv edərək, cümlə kənd ibtidai məktəblər bir proqram üzrə tərtib olunub, bundan sonra onların hamısına Maarif Nəzarətinin ibtidai məktəbləri ünvanı verilməsini və bu məktəblərdə qulluq edən müəllimlər cümləsi hüquqca müsavi [bərabər] olmasını qət və qərar edir.

Bundan sonra təqaüd maaşı xüsusundakı komissiya öz bəratülqövlünü [protokolunu] bəyan edir. Bu bəyanatdan anlaşılır ki, bu vaxta qədər müəllimlərdən hər ay çıxılan müəyyən faizlər, onsuz da qeyri-[kafi] məvacib alan müəllimlər üçün çox ağır təsir edir və güzaranlarını bir az da çətinləşdirir. Halbuki, hökumətin əksər idarələrində xidmət edən qulluqçulardan təqaüd sandığına əsl pul çıxılmadığı halda, onlar qulluqlarını itmama [tamama] yetirəndə, kafi qədər onlara xəzinədən təqaüd maaşı təxsis olunur [ayrılır]. Binaənileyh [ona görə], ədalət nöqteyi-nəzərindən müəllimlər barədə belə xüsusi rəftara gərək bundan sonra əsla meydan verilməsin. Ona görə, komissiya bu məsələni kamalınca təhlil və müzakirə edərək, minbəd müəllim və müəllimə əfəndilərdən belə paraların çıxılmaması ilə bərabər, onların itmami-xidmətlərində, yəni 25 sənəlik qulluğuna hökumət tərəfindən kafi qədər təqaüd maaşı (пенсия) təyin və onların oğul-uşağının məişətcə təmin olunmalarını arzu və xahiş edir. Bu xahiş, yığıncaq tərəfindən qəbul görülür.

On dəqiqə tənəffüsdən sonra, növbədə olan məsələlərdən maarif müfəttişlərinin ibtidai-ali, ibtidai sənaye və ünas [qız] məktəblərinə, oradakı heyəti-müəllimin [müəllimlər heyəti] ilə olacaq əlaqə və münasibata dair məsələ, hərçənd xüsusi bir komissiyaya verilmişsə də, bəzi mülahizələrə görə komissiya bu məsələnin həllini Maarif Nəzarətinə tərk etməyi müvafiq görür və bu vəchlə məsələ növbədən götürülür.

Bundan sonra, ümum [bütün] ibtidai məktəblərdə oxunacaq coğrafiya dərslərinə dair xəritələr nəşr olunması üçün Darülmüəllimin [seminariya] və başqa məktəblərdən mətbu və mükəmməl xəritələr cəm olunub, Maarif Nəzarətinin cənbində [nəzdində] olası Ədəbiyyat şöbəsi tərəfindən mümkün qədər tez və siyasi vəziyyətimizə mütabiq surətdə təb və nəşr olmasını [çap edilməsini və yayılmasını] yığıncaq ümumiyyətlə arzu və tələb edir.

Və nəhayət başqa məsaili-cariyyədən [cari məsələlərdən] danışılıb, yığıncaq öz vəzifəsini qurtarmış hesab edərək, burada müzakirə və həll olunan işlərin müzakirələrini ənqərib [ən qısa zamanda] Nəzarət çap etdirib hamı müfəttişlərinə və başqa məktəblərin müdirlərinə göndərilməsini arzu və xahiş edir və bununla məclis xitama [sona] yetir.

*İslam bəy Qəbulov*

## BAKI XƏBƏRLƏRİ

**Türk texnikləri arasında**

Bakı Politexnik məktəbində oxuyan Türk Texnikləri Cəmiyyəti, zəif yoldaşları üçün hazırlıq kursları açmış, dərslər gedir. Arzu edən yoldaşlar, cəmiyyət katibinə müraciət edə bilərlər. Ondan başqa cəmiyyət, yoldaşları üçün türkcə ədəbiyyat və tarix kursları dəxi açmışdır. Keçən cümə günü məktəb mütəallimi [tələbəsi] Məhəmmədzadə Mirzəbala, yoldaşları üçün Azərbaycan tarixi və ədəbiyyatı mövzusunda referat [məruzə] oxumuş, bu gün dəxi sənayeyi-nəfisə [incəsənət] mövzusuna dair mühazirə oxuyacaqdır.

**Mərkəzi Mütəallimlər [Tələbələr] Komitəsi**

Qafqaziya Müsəlman Mütəallimlərinin [tələbələrinin] Mərkəzi Komitəsi vəzifələrini ifa etməyə başlamışdır. Müxtəlif şəhərlərdə olan müsəlman mütəallimləri təşkilatlarından rica olunur, şu dərs ilinin əvvəlinci hissəsinə aid fəaliyyətləri barəsində komitəyə izahatda bulunsunlar. Kağızlar Persidski caddədə, 121 nömrəli evə, Əliyusif Cəfərova göndərilməlidir. Posta qutusu nömrə 273.

**Düyü**

İkinci dairə ev komitəsi cənbindəki [nəzdindəki] anbardan, Mərkəzi Ev Komitəsindən alınmış düyü, adambaşı beş girvənkəyədək düyü veriləcəkdir (Bolşaya Krepostnaya, nömrə 47). Düyünün qiyməti 3 rublə 30 qəpik olacaqdır. Həmin bu ayın 28-dən etibarən adambaşı yarım girvənkədən bir girvənkəyədək boranı veriləcəkdir. Qiyməti – bir rublə girvənkəsi. Böylə anbarlar hələlik ikinci büro cənbində (Vayennaya küçə, nömrə 5) və üçüncü büro cənbində (Sadovaya küçə, nömrə 34) açılmışdır. Dördüncü anbar da ən yaxın zamanda açılacaqdır.

* Bütün Zaqafqaziyadakı ingilis qoşunları komandanı Mill Bakıya varid olmuşdur [gəlmişdir].

* Srağagün sabiq nazirlər bütün işləri yeni nazirlərə vermişlər.

* Daxiliyə naziri Xəlil bəy Xasməhəmmədov və Hərbiyyə naziri Səməd Mehmandarov həzrətləri Gəncədən Bakıya varid olmuşlardır.

* Vaqon təqsimi [paylanması] bürosuna Bələdiyyə İdarəsi tərəfindən Əliyev intixab edilmişdir [seçilmişdir].

* Kanuni-əvvəlin [dekabrın] 27-də Ənzəlidən "Polyus" nam [adlı] vapor ingilis qoşunları ilə Bakıya varid olmuşdur.

## AZƏRBAYCANDA

* Şuşa qəzasının dördüncü dairəsi müfəttişi xəbər verir ki, keçən həftədə Qarakənd ermənilərindən bir dəstə cani berdanka və üçatılan tüfənglərlə müsəlləh olaraq [silahlanaraq] Mirzəəli kəndinə hücüm edib, bir qədər qaramal oğurlamışlar. Bunları mütəşəkkil

olduqları üçün tövqif [həbs] etmək mümkün olammamışdır.

* Ağbulaq uryadniki [polis məmuru] xəbər verir ki, Qarakənd erməniləri müsəlləh olaraq İsrafil Mustafa oğlunun padasına [sürüsünə] hücum edib 12 at, 68 baş qaramal aparmışlar.

**Qarabulaq (Qaryagin) qəzasından**

Bizə xəbər verirlər ki: Andranik macərasına uymuş olan ermənilər əmnasayişi pozub, ətraf müsəlmanlarına çox əziyyət edirlər. Burada yerli ermənilərdən başqa bir qədər də "yığıntı" çetecilər [quldurlar] var ki, bir dəstə düzəldib müsəlman köylərinə hücum edirlər. Məsələn, bir neçə vaxt bundan əvvəl ermənilər Arış kəndinə hücum edərək, kəndi atəşə tutmuş və bir qədər mal-qoyun aparmışlardır. Bundan sonra Qarabulağın (Qaryaginin) bir neçə verstliyində vaqe [yerləşən] Hoğa kəndinə hücum edərək şiddətli atəş açıb kəndi dağıtmış, biçarə əhalinin hər nəyi varsa qarət edib aparmışlardır. Bu hücumda bir çox müsəlman qırılıb, yerdə qalanları da qaçmışlardır. Ölənlərin miqdarı müəyyən deyilsə də, ancaq kənd əhalisindən bir neçə arvaduşaq və bir çox kişi qətl edilibdir. Əzcümlə [o cümlədən], o ətraflarda məşhur və Cavanşir familiyasına mənsub olan Əs'əd ağa, oğlu Sultan ağa və bir qızı qətl edilmişdir. Hüsntəsadüf [yaxşı bir təsadüf] olaraq, Əs'əd ağanın hərəmi ilə iki oğlu həmin gün Qarabulağa getmiş olduqlarından, zalımların əlindən xilas olmuşlardır. Bundan əlavə, Səlim xanın nəvəsi Hüseyn ağa dəxi Əs'əd ağaya müsafir ikən orada qətl edilmişdir.

Xülasə, neçə yüz müsəlman qismən öldürülüb, qismən də cəlayi-vətən olmuşlar [yurdlarından didərgin düşmüşlər].

Ermənilərin həyasızlığı getdikcə kəsbi-şiddət etməkdədir [şiddətlənməkdədir]. Zavallı türk-islamlar erməni çetecilərinin vəhşiliyindən böyük əziyyət çəkirlər. Neçə müddətdir ki, erməni çeteciləri Şuşa ilə Qarabulaq arasındakı yolu kəsmişlərdir. Böylə ki, məzkur [adı çəkilən] iki qəza arasında gediş-gəliş bilmərrə [tamamilə] kəsilmişdir.

Camaat bu qədər zülmü cəfalara ancaq hökumətin tədbir görməsini gözləyərək tab edir. Ancaq bilməyiriz ki, nə vaxt qəti bir çarə ediləcək və erməni quldurlarının vəhşiliyinə nə vaxt xitam çək[il]əcəkdir [son veriləcəkdir]?

## ZƏNGƏZUR MÜSƏLMANLARININ ƏHVALI

Gəncə valisi Ümuri-Xeyriyyə [Sosial Təminat] nazirinə göndərdiyi raporu ilə Zəngəzur camaatı mürəxxəslərinin [nümayəndələrinin] ərizələrini də göndərmişdir. Ərizədə əvvəla bir çox zəngəzurluların xanimanından əl çəkib Araz nəhri kənarında yaşadığı və bir çox fəlakətləri haqqında məlumat, saniyən [ikincisi], ac və möhtac olduqlarını təsvir edir.

Birinci dərdə əlac fəqət [yalnız] əsgəri qüvvətin gəlməsilə yerli yasavulların ədədini artırmaqla olacaqdır. İkinci dərdə dərman, yerli ərzaq təşkilatının eyiləşdirilməsi ilə və ondan maəda [başqa], türklər tərəfindən kəndlərdə böyük miqdarda toplanmış zəkatdan ədalət və intizam üzrə bu ac əhaliyə vermək, bu zəkat anbarlarını talan etmiş, şimdi də talan etməkdə olan müdirləri mövqelərindən əzl etmək [vəzifələrindən qovmaq] olar. Bundan başqa, iaşə məntəqələri təsis etmək, buralara təbib, feldşer, cərrahlarla bərabər, dəvacat və tibb ləvazimatı göndərmək lazımdır.

Bunu da əlavə ediriz ki, bizə acil [təcili] kömək vacibdir.

Bunun üçün, bizim mühafizəmiz üçün əsgəri qüvvə göndərmək, polis yasavullarını artırmaq, zəkat anbarları müdirlərini mühakiməyə vermək şərti ilə bərkənar etmək [kənarlaşdırmaq], iaşə məntəqələri təmiri və lazımi yerlər[ə] təbib heyətləri göndərilməsi rica və təmənna edilir.

Bu günlərdə müqtədir şairlərimizdən Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin **"İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin ikinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

*b. 4 – 3*

**Bakı Şəhər İdarəsi**

Bununla ümum ev sahiblərinə, onları əvəz edən icarədarlara, ev müdirlərinə, bunlar olmaz isə ev komitələrinin sədrlərinə elan edir ki, 1917-ci il sentyabrın 29-unda Müvəqqəti Hökumət tərəfindən təsdiq edilib, "Müvəqqəti Hökumət Əxbarı"nın 1917-ci il 13-26 oktyabrda nəşr edilən 176 (222)-cı nömrəsində elan edilən Şəhər Mədaxil, Məxaric və Smetası Qanunu mövcibincə [qanununa görə] və Şəhər Dumasının bu il 3 fevral və 14 noyabrda çıxardığı qətnaməsinə binaən [qətnaməsi əsasında] Şəhər İdarəsi mənfəətinə Bakı şəhərində mənzil vergisi qoyulur. Yuxarıda sayılan əşxas (51-ci maddə) 1919-cu il yanvarın 7-sinə kimi Şəhər İdarəsi Maliyyə şöbəsinə hər ev üçün mənzillərin siyahılarını təqdim edib, bu şeyləri göstərməlidir:

1) Mənzil sahiblərinin familini, adını və ata adını. Həmçinin mənzil pulsuz və faizlə verilibsə, yenə sahiblərinin adlarını təqdim etməlidir;

2) Mənzilin illik mədaxilini;

3) Ev sahibi özü oturduğu və yaxud pulsuz və faizlə özgəyə verilmiş mənzilin qiymətini.

Bu məlumatı yazmaq üçün Şəhər İdarəsi tərəfindən vərəqələr hazırlanıb, ev sahiblərinə göndəriləcəkdir. Kim bu vərəqələri almazsa, bunları hər gün Şəhər İdarəsi Maliyyə şöbəsindən almaq olar.

Qeyd: Bu məlumatı təqdim etməyənlər vərəqələri almamağı bəhanə edərlərsə, qəbul edilməyəcəkdir. 1919-cu il 7 yanvara kimi Şəhər İdarəsinə evlər və mənzillər barəsində düz məlumat verməyənlər üç yüz manata kimi cərimə ediləcəklərdir.

*Şəhər qlavası: P. İlyuşkin.*
*İdarə üzvü: İ. Pleskaçevski.*
*b-32 3-2*

**ELAN**

Müsəlman kitabçılığına çoxdan bəri məşğul olduğuma və İrəvanda, İstanbulda, Bakıda idarə etdiyim kitab mağazaları vasitəsilə təcrübələr hasil etdiyimə və bu ticarətin sənətkarı olduğuma istinadən (Mart hadisəsində Bakıda kitab mağazam yandırılıb büsbütün məhv edildiyinə görə) təkrar Bakıda mükəmməl bir “türk-islam” kitab mağazası açmaq üçün əlli min manat sərmayəli bir şərik istəyirəm. Arzu edənlər, Qubernski caddədə, rəngsatan Mustafa bəy Məlikovun mağazasında kitabçı Mirabbas Mirbağırzadəni sorsunlar [soruşsunlar].

*2621*

**Həkimlərin xüsusi gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə. Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Qabil diş qayıran Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, “İslamiyyə”nin sağ tərəfində ev nömrə 55.

*295*

**Doktor Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Mama M. K. Şerman**

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə.

Telefon 24-62

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Qoldqor-Fradkinin Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607*

**Diş həkimi İsay Samuiloviç Karşteynbaum**

Naxoşlar[ı] əvvəlki kimi qəbul edir. Dişləri ağrısız çıxarır və qızıl üzərində süni dişlər qayırır. Ünvan: Tsitsyanovski və Çadrovı küçələrin küncündə İsrafilovun 41 nömrəli evində. Qəbul edir hər gün saat 12-dən 3-ə kimi. Axşam 5-dən 8-ə kimi.

*2610*

***Müdir və baş mühərrir: Ceyhun bəy Hacıbəyli***

## QEYD VƏ ŞƏRHLƏR

**Bakı, 30 Kanuni-əvvəl**

səh. 447. "Yeni təşkil olunmuş Hökumət, Əhməd bəy Ağayev cənabları iş'ar etdikləri sükan kimi bizim taxta-parəmizi dənizin dalğalarından və fırtınasından xilas edib də sahili-nicata sövq edəcəkmi ya?": Qəzetin bu nömrəsində, "Azərbaycan Məclisi-Məbusanında" rubrikasında Əhməd bəy Ağayevin nitqinə (səh. 456-458) bax.

səh. 448. "Azərbaycan dairəsində Hökumətimizin yeganə qanuni hökumət olduğu və ona Müttəfiqlər tərəfindən tamamilə müzahirət göstəriləcəyi təkid olunur.": Bu cümlədəki "Hökumətimizin yeganə qanuni hökumət" və "müzahirət göstəriləcəyi" sözləri qəzetdə qara hərflərlə yazılmışdır.

**Bu zabastovka nə idi?**

səh. 448. "...komandanlıq kəndisinə müraciət edən konferensiya nümayəndələrini qəbul edərək…": Mətnin bu hissəsi qəzetdə belə getmişdir: "konferensiya kəndisinə müraciət edən konferensiya nümayəndələrini qəbul edərək".

səh. 449. "…bu komitə nəşr eylədiyi «İzvestiya»sında…": Burada söhbət, "İzvestiya Bakinskoy raboçey konferentsii" [Известия Бакинской рабочей конференции] qəzetindən gedir. Bu qəzetin Azərbaycan dilindəki versiyası "Bakı fəhlə konfransının əxbarı" adıyla çıxmışdır.

səh. 450. "…mart günlərinə məxsus bir fitnəkarlıqla…": Bolşevik və daşnak qüvvələrinin Bakıda dinc azərbaycanlı əhaliyə qarşı soyqırım törətdikləri 1918-ci ilin mart günləri nəzərdə tutulur.

"…Podşibyakinlərlə Baykovların…": Bakıda fəaliyyət göstərmiş kadetlər Mixail Floroviç Podşibyakin və Boris Lvoviç Baykov nəzərdə tutulmuşdur.

səh. 451. "İştə məsələnin doğu bu mehvər üzərində idi.": "Məsələnin məğzi, əsas mənası bundan ibarət idi" mənasında işlədilmişdir; "doğ" təkər, "mehvər" isə ox (fırlanan bir cismin ortasından keçən mil) deməkdir.

səh. 452. "M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

**İstiqlal və istiqbal ümidi**

səh. 452. "Zində ənd vəli mürdə / Mürdə ənd vəli zində": beyt farscadır; mənası: "Diridirlər, amma ölü kimidirlər; ölüdürlər, amma diri kimidirlər."

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 455. "Kəlamü'l-haqq yuridu bihi əl-batil.": ərəbcədir; "batil bir məqsəd güdərək işlədilən haqq söz" deməkdir.

səh. 456. "Lakin bu amalın ölməməsi və onun qövldən feilə gəlməsi...": qəzetdə "qövldən" yerinə səhvən "qüvvədən" yazılmışdır.

**Erməni-gürcü toqquşması: Könüllü dəstələr**

səh. 460. "Gürcüstanın Hərbiyyə naziri…": bu vəzifəni 1918-ci ilin mayından 1919-cu ilin fevralına kimi Qriqol Giorqadze tutmuşdur.

**Teleqraf xəbərləri**

səh. 460. "İzzət paşa Kabinəsi": Əhməd İzzət paşanın başçılığı altındakı hökumət nəzərdə tutulur. Bu hökumət 1918-ci ilin 14 oktyabr – 8 noyabr tarixləri arasında iş başında olmuşdur.

“Təzə kabinə təşkili, təzə vəzir Tofiq paşaya tapşırılmışdır.”: Əhməd Tofiq (Okday) paşanın başçılığı altındakı hökumət nəzərdə tutulur. Bu hökumət 11 noyabr 1918 – 10 mart 1919 tarixləri arasında iş başında olmuşdur.

**Maarif müfəttişlərinin yığıncağı**

səh. 461. “...zemski və qeyri məktəblər.”: Rusiya imperiyasında XIX əsrin axırlarında və XX əsrin əvvəllərində mövcud olmuş məktəb tipi. Zemski məktəbləri seçkili yerli özünüidarə orqanı olan zemstvo təşkilatlarının qurulmasından sonra kəndlərdə açılmışdı. Bu məktəblərdə təhsil müddəti 3 (bir sinifli məktəblərdə) yaxud 4 (iki sinifli məktəblərdə) il idi.

**Azərbaycanda**

səh. 463. “berdanka”: odlu silah (tüfəng) növü.

səh. 464. “Qarabulaq (Qaryagin) qəzasından...”: Qarabulaq, Qaryagin qəzasının bölündüyü üç polis məntəqəsindən biri olmuşdur.

səh. 464. “...və bir qızı qətl edilmişdir.”: burada söhbət Əs’əd ağanın qızı İranbəyimdən gedir.

**Zəngəzur müsəlmanlarının əhvalı**

səh. 465. “yasavul”: əsasən kəndlərdə polisin vəzifəsini yerinə yetirən şəxslərə deyilirdi.